AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
(OMBUDSMAN)

# ERMƏNİSTAN TƏRƏFİNDƏN AZƏRBAYCANLILARA QARŞI YÜRÜDÜLƏN NİFRƏT SİYASƏTİNDƏ UŞAQLARDAN İSTİFADƏ EDİLMƏSİNƏ DAİR

## HESABAT





BAKI - 2023

**Giriş**...............................................................................................................**2**

1. **Postmüharibə dövründə Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplaşmalara cəlb edilməsi**........................................**5**

2. **Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət nitqinin təbliğində uşaqlardan istifadə edilməsi**.........................................................................**26**

3. **Müharibə vəziyyətində uşaqların müdafiəsinə dair Ermənistan tərəfindən pozulmuş beynəlxalq hüquq normaları**....................................**33**

**Nəticə**..........................................................................................................**37**

## Giriş

Uşaqların hüquq və maraqlarının qorunması, hərtərəfli qayğı ilə əhatə olunması, onları inkişafı üçün zəruri şəraitin yaradılması istiqamətində beynəlxalq səviyyədə mühüm addımlar atılmasına baxmayaraq, uşaqlar müasir dünya reallığında müxtəlif çətinliklərlə üzləşir, bir sıra təhlükələrdən, o cümlədən müharibədən əziyyət çəkirlər.

Beynəlxalq hüquqi sənədlərdə müharibə şəraitində uşaqların hüquqlarının qorunması, onların təhlükəsizliyinin təmin olunmasına dair müddəalar təsbit olunmuşdur.

Təəssüflər olsun ki, uzun illərdir Ermənistan bu müddəalara zidd olaraq uşaqların hüquqlarını kobud surətdə pozmağa davam edir. Ermənistan tərəfindən yürüdülən siyasət nəticəsində Ermənistan - Azərbaycan münaqişəsi dövründə uşaqların bir çox hüquqları, o cümlədən yaşamaq hüququ pozulmuşdur.

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizindən çoxu 30 ilə yaxın bir müddət ərzində Ermənistan tərəfindən işğal altında saxlanılmış, bir milyondan artıq azərbaycanlı, o cümlədən uşaqlar qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfərdən artıq azərbaycanlı hərbi əməliyyatlar dövründə öldürülmüş, 50 min nəfərdən çoxu isə əlilliyə səbəb olan xəsarətlər almışdır.[1]

Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində 71 uşaq, 267 qadın, 326 qoca olmaqla, itkin düşmüş 3890 nəfər azərbaycanlının (2020-ci il dekabrın 1-nə olan məlumata əsasən) sonrakı taleyi barədə hazırkı vaxtadək heç bir məlumat yoxdur.[2,3]

Birinci Qarabağ müharibəsi nəticəsində erməni girovluğundan azad edilmiş 1480 azərbaycanlıdan 224 nəfəri də uşaq olmuşdur[4].

1988-1993-cü illərdə Qarabağda ümumilikdə 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur dağıdılmışdır.[5]

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 63 uşağın öldürülməsi, 76 nəfəri uşaq olmaqla 487 dinc sakinin ağır yaralanması, 26 uşağın hər iki valideynini, 130 uşağın isə bir valideynini itirməsi[6], habelə Ermənistan silahlı qüvvələrinin mülki yaşayış məntəqələrini atəşə tutması nəticəsində

---

1 Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, “Ermənistan-Azərbaycan münaqişəsi”, https://president.az/az/pages/view/azerbaijan/karabakh

2 Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmi internet saytı, “İtkin düşmüş şəxslər”, http://human.gov.az/az/munaqise/birinci-qarabag-muharibesi/itkin-dusmus-shexsler.html

3 Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, “Ermənistan-Azərbaycan münaqişəsi”, https://president.az/az/pages/view/azerbaijan/karabakh

4 Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmi internet saytı, “İtkin düşmüş şəxslər”, http://human.gov.az/az/munaqise/birinci-qarabag-muharibesi/itkin-dusmus-shexsler.html

5 Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, “Ermənistan-Azərbaycan münaqişəsi”, https://president.az/az/pages/view/azerbaijan/karabakh

6 Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Təhlil və Strateji Araşdırmalar İdarəsi, “Xocalı soyqırımı” adlı nəşr (26 fevral 2022-ci il), https://mfa.gov.az/files/shares/Xocali%20senedler_update_26.02.2022.pdf

2011-ci ildə Ağdam rayonunda 9 yaşlı Fariz Bədəlovun və Tovuz rayonunda 13 yaşlı Aygün Şahmalıyevanın, 2017-ci ildə Füzuli rayonunda 2 yaşı tamam olmamış Zəhra Quliyevanın nənəsi ilə birlikdə həlak olması[7] uşaqların Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinin qurbanına çevrilməsinin bariz nümunələrindəndir.

2 aprel 2016-cı il tarixində səhər erkən saatlardan başlayaraq Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdəki mövqelərindən təmas xətti boyunca insanların sıx məskunlaşdığı yaşayış məntəqələrini artilleriya qurğuları və iriçaplı silahlardan intensiv atəşə tutması və sonrakı döyüş əməliyyatları nəticəsində uşaqlar daxil olmaqla 6 mülki şəxs həlak olmuş və 33 şəxs ağır yaralanmışdır. Məktəblər, xəstəxanalar, ibadət yerləri, yaşayış evləri də daxil olmaqla dövlət və şəxsi mülkiyyətə ziyan dəymişdir. 2016-cı ilin aprel ayında Tərtər rayonunun Ermənistan tərəfindən atəşə tutulması nəticəsində Kəlbəcər rayonundan məcburi köçkün düşmüş 16 yaşlı azərbaycanlı mülki şəxs Turanə Həsənova həlak olmuşdur[8].

2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan, uzaqmənzilli raketlərdən atəşə tutması nəticəsində 12 uşaq həlak olmuş, 67 uşaq yaralanmışdır.Bir çox uşağın valideyni həlak olmuş, dörd uşaq isə hər iki valideynini itirmişdir. Mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil və səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının pozulmasına, onların psixoloji sarsıntı keçirməsinə səbəb olmuşdur[9].

Ermənistan tərəfindən son 30 il ərzində Azərbaycan ərazilərinin məqsədli şəkildə minalanması postmüharibə dövründə də davam etdirilmişdir. Ümumilikdə, ərazilərin azad edilməsindən sonra ciddi səylər tələb edən minatəmizləmə işlərinin davam etdirilməsinə baxmayaraq, çoxsaylı hərbi qulluqçu və mülki şəxs tank və piyada əleyhinə basdırılan minalara düşərək həlak olmuş və ya yaralanmışdır. Ermənistan tərəfinin mina xəritələrini vaxtında və dəqiqliklə Azərbaycan tərəfinə verməkdən yayınmasının nəticələrindən biri də odur ki, müharibə bitdikdən sonra da bir çox azərbaycanlı uşaq Ermənistanın nifrət yönümlü siyasəti nəticəsində valideynlərini itirib və mina qurbanlarının sayı hələ də artmaqdadır.

İkinci Qarabağ müharibəsinin başa çatmasından hazırkı vaxtadək 300-ə yaxın şəxs Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində zərər çəkmiş, onlardan 55 nəfəri həlak olmuşdur.[10] 1991-ci ildən bugünədək Azərbaycanda 3381 insan mina qurbanına çevrilmişdir ki, onlardan 38 nəfəri qadın, 358 nəfəri isə uşaqlar olmuşdur.[11]

---

7 “Xocalıya ədalət” kampaniyasının rəsmi internet səhifəsi, “News from Israel: İki yaşlı Zəhra müasir erməni faşizminin hədəfi və qurbanı oldu” (07.07.2017), https://justiceforkhojaly.org/az/news-events/view/news-from-israel-ikiyasli-zehra-muasir-ermeni-fasizminin-hedefi-ve-qurbani-oldu-229

8 Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, “Aprel 2016: Ermənistanın Azərbaycana qarşı hücumu” adlı broşür, https://mfa.gov.az/files/2.2%20AZ%20PDF%20Offensive%20April%202016.pdf

9 Azərbaycan Respublikası Baş Prokurorluğunun rəsmi inernet saytı, “44 gün sürən Vətən müharibəsi (II Qarabağ müharibəsi)”, https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi

10 “AZƏRTAC” İnformasiya Agentliyi”, “Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mina partlayışı ilə bağlı cinayət işi başlanıb” (01.05.2023), https://azertag.az/xeber/2596265

11 “Oxu.az” xəbər saytı, “1991-ci ildən indiyədək ermənilərin mina terrorunun qurbanı olan azərbaycanlıların sayı açıqlanıb” (19.05.2023), https://oxu.az/society/731577

Qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana qarşı uzun illər ərzində etnik nifrət zəminində yürütdüyü işğalçılıq siyasəti ilə yanaşı, ekoloji terror siyasəti nəticəsində ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, flora və faunasına, su mənbələrinə, bütövlükdə regionun ekosisteminə ciddi zərər vurulmuş, beynəlxalq ekoloji cinayətlər törədilmişdir. Ekoloji terror Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatından sonra da davam etdirilmişdir.

Ermənistan tərəfindən ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarı, talan edilməsi və nəticədə ətraf mühitin ciddi şəkildə çirkləndirilməsinin qarşısını almaq məqsədilə Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının nümayəndələri və ətraf mühitin mühafizəsinə mühüm önəm verən ictimai fəallar tərəfindən Laçın-Xankəndi yolunda dinc aksiya keçirilməkdədir. Təəssüflə qeyd etmək istərdik ki, Ermənistan tərəfi bu aksiyadan da siyasi məqsədlərlə istifadə etməklə dünya ictimaiyyətinə çaşdırıcı məlumatlar yayır və diqqət çəkmək üçün uşaqlardan geniş şəkildə istifadə edir.

Bu hesabatda postmüharibə dövründə (İkinci Qarabağ müharibəsindən sonrakı dövr nəzərdə tutulur) Ermənistan tərəfindən uşaqların silahlı qruplaşmalara cəlb edilməsi, həmçinin azərbaycanlılara qarşı nifrət nitqinin təbliğində uşaqlardan istifadə edilməsi ilə bağlı faktlar yer almışdır. Bununla yanaşı, hesabatda müharibə şəraitində uşaqların hüquqlarının müdafiəsinə dair beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən pozulmasının təhlili verilmişdir.

Hesabatın hazırlanması zamanı Ermənistan tərəfindən uşaqların silahlı münaqişələr şəraitində hüquqlarının pozulmasına dair beynəlxalq təşkilatların sənədlərindən, mediadan, məqalələrdən, müsahibələrdən, müvafiq qurumlar tərəfindən verilmiş statisik göstəricilərdən və digər bu kimi ikinci dərəcəli məlumatlardan (secondary data) istifadə edilmişdir. Hesabatda istifadə edilən materiallar ictimaiyyətə açıq mənbələrdən olsa da, uşaqların maraqlarının qorunması məqsədilə görüntülərdə onların üzləri gizlədilmişdir.

Hesabatın hazırlanmasında məqsəd Ermənistan tərəfindən aparılan siyasət nəticəsində uşaqların hüquqlarının pozulmasına dair faktları dünya ictimaiyyətinin, o cümlədən aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırmaqdan və nifrət siyasətinin qarşısının alınmasına çağırış etməkdən ibarətdir.

## 1. Postmüharibə dövründə Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplaşmalara cəlb edilməsi

Beynəlxalq hüquqi sənədlərə əsasən silahlı münaqişələr zamanı uşaqların hüquq və maraqları qorunmalı, onlardan istifadə edilməməlidir.

Ermənistan beynəlxalq konvensiyaların müddəalarına zidd olaraq uşaqları öz ordusuna cəlb etmiş və Azərbaycana qarşı hərbi əməliyyatlarda, o cümlədən 44 günlük Vətən müharibəsi dövründə istifadə etmiş, bununla da onların hüquqlarını kobud surətdə pozmuşdur.

Təəssüflə bildirmək lazımdır ki, Ermənistan tərəfindən uşaqlara yönəlik hərbiləşdirmə siyasəti həm işğal dövründə, həm də postmüharibə dövründə həyata keçirilmişdir. Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən "Aspet" kimi hərbi təlim düşərgələri təşkil olunmuş, həmin təlimlərdə yalnız Ermənistandan olan məktəblilər deyil, həmçinin erməni diasporasının geniş olduğu başqa ölkələrdən də uşaqlar cəlb edilmişdir.[12] Erməni mətbuatında verilmiş məlumatlara əsasən, bu cür təlimlərdə 10-15 yaşlı uşaqlar iştirak etmişdirlər.[13] Bu fəaliyyət müharibədən sonrakı dövrdə də sistemli formada davam etdirilmiş, "VoMA" və "POGA" kimi qanunsuz silahlı birləşmələr vasitəsilə həyata keçirilmişdir.

Ermənistanın münaqişə dövründə uşaqları orduya cəlb etməsi ilə bağlı məsələyə müxtəlif vaxtlarda beynəlxalq təşkilatlar tərəfindən də münasibət bildirilmişdir.

BMT-nin Uşaq Hüquqları Komitəsi 2000-ci il yanvar ayında keçirilmiş sessiyasında qəbul etdiyi Yekun Tövsiyələrin 48 və 49-cu bəndlərində Ermənistanın silahlı qüvvələrinə yeniyetmə uşaqların səfərbər olunması iddiaları ilə bağlı narahatlığını bildirmiş və Ermənistana uşaqların silahlı qüvvələrə cəlb olunmasından çəkinməsini tövsiyə etmişdir.[14]

Ermənistanın 18 yaşadək şəxsləri çağırışa cəlb etməsi ilə bağlı təcrübəsi barədə məlumatlar Beynəlxalq Uşaq Əsgərlər təşkilatının 2001-ci il tarixli hesabatında da bir daha qeyd edilmişdir.[15]

Həmin təşkilatın Ermənistana dair 2004-cü il tarixli Uşaq Əsgərləri Qlobal Hesabatında Azərbaycandan olan etnik erməni qaçqınların 1999-cu ildə qəbul edilmiş və onları hərbi xidmətdən azad edən "Qaçqınlar haqqında" Qanuna zidd olaraq məcburi hərbi xidmətə cəlb olunmasının davam etdiyi qeyd olunur. Hesabatda həmin qaçqınların valideynlərinin oğullarına qarşı repressiyalardan qorxaraq şikayət etməkdən çəkindikləri,

---

[12] Xaçatryan S., "ОТКРЫЛСЯ ВОЕННО-СПОРТИВНЫЙ ЛАГЕРЬ «АСПЕТ»" (05.07.2019), https://artsakhtert.com/rus/index.php/culture-and-education/item/13669-otkrylsya-voenno-sportivnyj-lager-aspet

[13] "Arcakh24.info" xəbər agentliyi, https://arcakh24.info/hy/arcakhyan-timy-shnorhakal-e-erkrapahneri-miutyunic/

[14] BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinin Ermənistana dair Yekun Tövsiyələri (24.02.2020), https://www.refworld.org/pdfid/3ae6afc510.pdf

[15] Beynəlxalq Uşaq Əsgərlər Təşkilatının 2001-ci il üzrə Ermənistana dair hesabatı https://www.refworld.org/docid/49880616c.html

onlardan əksəriyyətinin 15 və ya 16 yaşlarında olduğu, onuncu sinifdə oxuyan bir şagirdin isə məktəb otağından aparılaraq orduya çağırıldığı bildirilir.[16]

2013-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının[17] Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokolunun[18] icrası barədə Ermənistan tərəfindən təqdim edilmiş ilkin hesabatla bağlı BMT-nin Uşaq Hüquqları Komitəsinin yekun tövsiyələrində IV və V fəsillər məhz bu mövzuda narahatlıq yaradan hallara həsr edilmişdir. Belə ki, Komitə Ermənistanda orta ümumtəhsil məktəblərində 8-ci siniflər (14 yaş) üçün qəbul edilmiş proqramda mülki müdafiə dərslərində odlu silahlardan istifadə təlimləri, 14 yaşdan başlayaraq uşaqların qəbul olunduğu digər hərbi məktəblərdə də bu cür silahların istifadəsinə dair təlimlərin keçirilməsi, habelə qəti qadağa olmadığı təqdirdə 18 yaşadək uşaqların hərbi əməliyyatlar baş verdiyi zaman orduda şəxsi heyət qismində çağırışa cəlb oluna bilməsi ilə bağlı narahatlığını ifadə etmişdir. Komitə tərəfindən Ermənistana ümumtəhsil məktəblərinin proqramından hərbi təlimlərin çıxarılması, hərbi məktəblərdə 18 yaşadək uşaqlara odlu silahlardan istifadəyə dair və döyüş təlimlərinin qadağan edilməsi üçün tədbirlərin görülməsi tövsiyə olunmuşdur. Eyni zamanda, dövlətin hərbi məktəblərdəki proqramlar və pedoqoji heyətin Fakultativ Protokola uyğunluğunu təmin etməsi üçün müntəzəm monitorinqlərin təşkil olunması da tövsiyələr sırasında yer almışdır.[19]

İkinci Qarabağ müharibəsi zamanı da Ermənistanın uşaqları silahlı qüvvələrinə cəlb etməsi ilə bağlı bir sıra faktlar mövcuddur.[20]

10 noyabr 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanatda bütün hərbi əməliyyatları dayandırmaq barədə tərəflərin öhdəlik götürməsinə[21] baxmayaraq, bu hallar bu günə qədər davam edir.

Beləliklə, Ermənistan beynəlxalq hüququn və Üçtərəfli Bəyanatın tələblərini kobud şəkildə pozaraq, nəinki öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edir, həm də Rusiyanın sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi

---

16 Beynəlxalq Uşaq Əsgərlər Təşkilatının 2004-cü il üzrə Ermənistana dair hesabatı https://www.refworld.org/docid/4988067924.html

17 "Uşaq hüquqları haqqında" Konvensiya (20 noyabr 1989), https://www.ombudsman.az/upload/editor/files/Ushaq%20huquqlari%20Konvensiya.pdf

18 "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu (02.04.2002) https://e-qanun.az/framework/1575

19 "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokolunun 8-ci maddəsinə əsasən Ermənistan tərəfindən təqdim edilmiş ilkin hesabatla bağlı BMT-nin Uşaq Hüquqları Komitəsinin yekun tövsiyələri https://digitallibrary.un.org/record/756277

20 Azərbaycanın mülki yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində baş vermiş uşaq itkiləri barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aralıq Hesabatı (2020) https://www.ombudsman.az/upload/editor/files/Ombudsman_Araliq%20Hesabat_ushaq%20itkileri_huquq%20pozuntulari.pdf

21 Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı, Rusiya Federasiyasının BMT yanında Daimi Nümayəndəsinin Təhlükəsizlik Şurasının Prezidentinə ünvanlanmış 10 noyabr 2020-ci il tarixli məktubuna əlavə. BMT sənədləri, S/2020/1104, I bənd: file:///C:/Users/User/Downloads/S_2020_1104-EN.pdf

Azərbaycan ərazilərindəki hərbi düşərgələrdə uşaqların təlimi üçün “VoMA” və “POGA” kimi silahlı qruplara icazə və dəstək verir[22]. 44 günlük müharibədə Ermənistanın Azərbaycana qarşı apardığı hərbi əməliyyatlarda könüllü kimi bu silahlı dəstəyə cəlb olunan uşaqların da iştirak etdiyini mövcud sübutlar təsdiq edir. Belə könüllülərin siyahısının əlavə olunduğu hesabat Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.[23]

Bu təşkilatlar tərəfindən uşaqlara etnik nifrətin aşılanması xüsusi narahatlıq doğurur. Açıq mənbələrdə yayılan videogörüntülər təsdiqləyir ki, onların hərbi düşərgələrində “VoMA” və oxşar etno-millətçi nifrət silahlı qruplaşması “POGA” irqçi Njdeizm ideologiyasını təbliğ edir. Təəssüf ki, Ermənistanda onun abidəsi ucaldılıb və geniş təbliğatı aparılır. Ombudsmanın azərbaycanlılara qarşı nifrət nitqi və nifrət cinayətləri ilə bağlı II hesabatında qeyd edildiyi kimi, Njdenin irqçi və nasist ideoloji fikirlərindən biri olan “Türklə mübarizəsiz bir gün belə olmamalıdır” ideyası geniş təbliğ edilir və sosial şəbəkələrdə “Türk mənim düşmənimdir” fləşmobu keçirilmişdir.[24]

Hərbi təlimlərdə iştirak edən uşaqlara erməni irqinin (Tsexaqron) “irqi üstünlüyü” üzərində qurulan və azərbaycanlılara qarşı nifrət hissini təbliğ edən bədnam “Tsexaqron” ideologiyasının banisi, nasistlərlə əməkdaşlıq etmiş Qaregin Njdenin sitatları öyrədilir[25].

Müharibədən sonrakı dövrdə də bu qruplaşmalar tərəfindən hərbi təlimlər geniş formada davam etdirilir və sosial şəbəkə hesablarında da bu barədə məlumatlar açıq şəkildə paylaşılır.

29 aprel 2021-ci il tarixində erməni saytında “VoMA” təşkilatı tərəfindən Qafanda “Njdeni oxu, Vətəni qoru!” adlı mədəni-hərbi tədbir keçirilməsi haqqında yayımlanmış məlumata əsasən, tədbir çərçivəsində nasizm ideologiyası ilə bağlılığı olmuş erməni millətçinin təbliğatı aparılmış, həmçinin uşaqlar hərbi təlimlərə cəlb edilmişdir.

İkigünlük tədbir çərçivəsində birinci gün Ermənistanda qəhrəman olaraq tanıdılan, faşizmə xidmət etmiş erməni millətçi Qaregin Njdenin kitabının təqdimatı keçirilmişdir. Tədbirin ikinci günü isə bütünlükdə “VoMA” tərəfindən keçirilmiş hərbi təlimlərə həsr

---

22 Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatı, https://digitallibrary.un.org/record/4002241?ln=en

23 Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı son təcavüzdə xarici terrorçu döyüşçülərin istifadə edilməsinə dair hesabat, Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi tərəfindən Baş katibə ünvanlanmış 18 noyabr 2020-ci il tarixli məktuba əlavə. BMT sənədləri, A/75/625–S/2020/1161
https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N20/343/35/PDF/N2034335.pdf?OpenElement

24 Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair hesabat (II hissə): https://www.ombudsman.az/upload/editor/files/Az%C9%99rbaycanl%C4%B1lara%20qar%C5%9F%C4%B1%20nifr%C9%99t%20cinay%C9%99tl%C9%99ri%20v%C9%99%20nifr%C9%99t%20nitqin%C9%99%20dair%20HESABAT%20(2-ci%20hiss%C9%99).pdf

25 Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatı (26.01.2023)
https://digitallibrary.un.org/record/4002241?ln=en

edilmişdir. Yayımlanmış şəkillərdən də tədbirdə iştirakçıların əsas etibarilə uşaqlar olduğu görünür.[26]



**Şəkil 1.**

Fransanın “Le Figaro” qəzeti “VoMA”nın keçirdiyi təlimlərə marağın artdığını” yazmış və uşaqların bu təlimlərdə iştirakını əks etdirən fotolar dərc etmişdir. [27] Alman jurnalist də “VoMA”nın keçirdiyi hərbi təlimlər barədə yayımladığı məqalədə iştirakçıların uşaq yaşlarından təlimlərə cəlb edildiyini qeyd etmişdir.[28]

Postmüharibə dövründə (2021-ci il) fəaliyyətə başlamış və müxtəlif yaş qruplarından olan şəxslərə ödənişsiz hərbi hazırlıq dərsləri keçən “POGA”nın təlimləri ilə əlaqədar bir məqalədə yayımlanmış foto da həm uşaqların təlimlərdə iştirakını, həm də bu qruplaşmanın da Njdenin sitatlarından istifadə etdiyini açıq şəkildə nümayiş etdirir: [29]



**Şəkil 2.**

[26] "Arovot” erməni xəbər agentliyi, “‘Read Nzhdeh, save the homeland’: Cultural and military program in Kapan” (29.06.2021) https://www.aravot-en.am/2021/04/29/281785/

[27] Pierson E., “Au cœur du groupe paramilitaire VOMA en Arménie, qui forme les civils à l'éventualité d'une guerre” (23.11.2023), Fransanın “Le Figaro” qəzeti https://www.lefigaro.fr/international/au-coeur-du-groupe-paramilitaire-voma-en-armenie-qui-forme-les-civils-a-l-eventualite-d-une-guerre-20221123

[28] Vojta S., “Following the War, Self-Defense Is Being Taught in Armenia”, “Yerevan Press Club” https://ypc.am/following-the-war-self-defense-is-being-taught-in-armenia/

[29] Manoukyan A., “Armenian Mirror-Spectator”, “Self-Defense Groups Get to Work: Videos” (27.09.2022) https://mirrorspectator.com/2022/09/27/self-defense-groups-get-to-work-videos/

“POGA”nın fəaliyyəti ilə bağlı “Eureporter” portalında yayımlanmış məqalədə də qruplaşmanın fəaliyyətinin əsasən radikal millətçilik və anti-türk təbliğatı üzərində qurulduğu vurğulanmış, böyük xərc tələb edən hərbi təlimlərin ödənişsiz keçirilməsinin də sual yaratdığı qeyd olunmuşdur. [30]



The Activities of "POGA" comprise radical nationalism and anti-Turkish propaganda. The Facebook Page of Organization regularly quotes "heroes" such as Garegin Njde and Monte Melkonyan. Almost in every post, users call for war: slogans such as "The enemy is the same enemy," "We have no right to weaken," "Let's be a great force and prove to the whole world that we will not fall," "We must be stronger and be a people's army.", “The Motherland needs you more than you always” keep young people away from common sense.

The fact that the trainings are free raises some questions. It is known that military training requires large expenditures: the supply of weapons and other equipment for the staff, travel expenses, food, etc. need funds. Although there is not enough information about the financial sources of "POGA", it is known that the organization receives support from the Armenian diaspora. In one of the information posted on Facebook the organizers express their gratitude for the support of the American Armenian Vrej Grigoryan.

**Şəkil 3.**

Ermənistanın müdafiəsini gücləndirmək, xalqın ruhunu yüksəltmək məqsədilə yaradıldığını bəyan edən “VoMA” silahlı qruplaşması (Voxj Mnalu Arvest – “Sağ qalmaq sənəti”) Ermənistan Milli Ordusunun məğlubedilməz, mənəvi cəhətdən sağlam və texnoloji cəhətdən inkişaf etməklə keçilməz qalaya çevrilməli olduğunu qeyd edir. Əsas missiya kimi “VoMA” 100 min erməni vətəndaşının Osmanlı (*nəzərdə tutulur: Türkiyə Respublikası*) və Xəzər təhlükəsi ilə (*nəzərdə tutulur: Azərbaycan Respublikası*) üzləşməyə hazırlığını artırmaq məqsədini gizlətməkdən belə çəkinmir. “VoMA”nın internet səhifəsində bu qruplaşmanın missiyası kimi qeyd edilmiş məlumatlar bunu təsdiq edir: [31]




**Şəkil 4.**

[30] Auge L.,“Youth Population Preparing for War in Armenia”, “Eureporter” (12.07.2021) https://www.eureporter.co/world/armenia/2021/07/12/youth-population-preparing-for-war-in-armenia/
[31] “VOMA”nın rəsmi internet saytı https://www.voma.center/en/who-we-are

Qisas hisslərini yüksəldən ideoloji təbliğat aparmaqla uşaqların erkən yaşlarından hərbi təlimlərə cəlb edilməsi əslində bu qrupların cəmiyyətə etdiyi sosial təzyiq, dini amillərin mənfi mənada qabardılmasının nəticəsidir. Aşağıda bu təlimlərdən bir neçə foto verilmişdir: [32] [33] [34]



**Şəkil 5.**



**Şəkil 6.**

[32] https://www.facebook.com/VomaKapan2020/posts/pfbid0w6p8gRWQaSL7ESyWrf3ATiGnjLEvS1cxPCtdGDVonzKCJnJ3RNGaxeMNCP7DPs7Zl

[33] https://www.facebook.com/VomaKapan2020/posts/pfbid02Bq47YTQSSjjedUANGm7erYT6w6SGFLPyupVYo89J4E7dMU8Xgya6aakyZaXpDEtJl

[34] https://www.facebook.com/VomaKapan2020/posts/pfbid0279tMUU3999Se5TJUK5ebewC9RkYPyfgqno6a8w4NK5c3mF4GTZaRYfwyn3w6joKVl



**Şəkil 7.**



**Şəkil 8.**



**Şəkil 9.**



**Şəkil 10.**

Real döyüş silahları ilə təlimlərdən çəkilmiş videolardan fraqmentlər:[35] [36]




**Şəkil 11.**




**Şəkil 12.**

[35] https://www.facebook.com/100075962121565/videos/1274739606626807/

[36] https://www.facebook.com/100075962121565/videos/1237061117058007




**Şəkil 13.**

Ermənistan mətbuatında Qarabağ müharibəsi iştirakçısı Vasil Avetisyanın 13-17 yaşlı uşaqlar üçün pulsuz atıcılıq məktəbi açdığı barədə məlumatlar yer alır. Xəbərdə hərbi məktəbdə qızların da atəş açmağı öyrənə biləcəyi vurğulanır. Qeyd edilir ki, əsas məktəb Sisian şəhərində yerləşir və Sünikin digər şəhərlərində də filialların açılması planlaşdırılır.[37]




**Şəkil 14.**

[37] https://www.facebook.com/watch/?v=537468303905443

Aralarında qızların da olduğu azyaşlıların hərbi təlimlərə cəlb olunması ilə bağlı digər foto:[38]



**Şəkil 15.**

Təəssüflər olsun ki, azərbaycanlılara qarşı nifrət və zorakı çıxışları ilə cəmiyyətdə revanşist çağırışlar edən"VoMA" və "POGA" başda olmaqla, bir sıra silahlı qrupların fəaliyyəti hələ də davam etdirilir. Qeyd edilməlidir ki, Azərbaycan hüquq-mühafizə orqanlarının araşdırmaları əsasında müəyyən edilmişdir ki, Ermənistan Respublikasının vətəndaşı Vladimir Vartanov və qeyriləri Ermənistan Respublikasından kənarda yaşayan müxtəlif millətlərdən olan digər ölkə vətəndaşlarını cəlb edərək, Azərbaycan Respublikasına və vətəndaşlarına qarşı terror aktları törətmək məqsədilə 2014-cü ildə "VoMa" ("Voxj Mnalu Arvest" - sağ qalmaq sənəti) adı altında Ermənistan Respublikası ərazisində hərbiləşdirilmiş təşkilat təsis etmişlər. Hərbiləşmiş təşkilatın "Asala", "PKK" və digər terror təşkilatlarının üzvlərini "VoMa"nın üzvülüyünə cəlb etməsi və onların "Dağ-atıcı ehtiyat batalyonu"nun ("VoMA batalyonu") tərkibində cinayətkar birlik halında birləşmələri müəyyən edilmişdir. [39]

2021-ci ilin sentyabrında Azərbaycan BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tələblərinin kobud surətdə pozulması ilə əlaqədar Ermənistana qarşı dövlətlərarası iddialar qaldırmışdır. Beynəlxalq Ədalət Məhkəməsi 7 dekabr 2021-ci il tarixində Azərbaycanın verdiyi vəsatətlər əsasında Ermənistana qarşı müvəqqəti tədbirlərə dair yekdilliklə qərarlar qəbul etmişdir: Ermənistana Azərbaycan vətəndaşlarına və

---

[38] Oğuz H., "Ermənilərin uşaq terrorçuları: Beynəlxalq hüququn doğurduğu vəhşət" (11.12.2021), "Ovqat.com" Xəbər Agentliyi https://ovqat.com/prizma/52769-ermnilrin-uaq-terrorcular.html

[39] Azərbaycan Respublikası Baş Prokurorluğunun rəsmi internet səhifəsi, "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində terrorçuluq məqsədilə yaradılmış "VoMa" silahlı birləşməsinə qarşı cinayət işi başlanmışdı" (03.11.2020), https://genprosecutor.gov.az/az/post/3146

Azərbaycan əsilli şəxslərə qarşı təşkilatlar və fərdlər də daxil olmaqla, Ermənistan ərazisində nifrət nitqi zəminində irqi ədavətin təşviqi və qızışdırılmasının qarşısını almaq üçün bütün zəruri tədbirlərin görülməsini, habelə mübahisəni gərginləşdirə və ya uzada biləcək, o cümlədən həllini çətinləşdirə biləcək hərəkətlərdən çəkinmək tapşırığı verilmişdir. Məhkəmə tərəfindən qəbul edilmiş bu qərarın əsasında Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət nitqi və zorakı çağırışlar edən şəxslərin və "VoMA", "POGA" və sair kimi etnik-milliyyətçi qrupların məsuliyyətə cəlb edilməməsi, onların fəaliyyətinin bəzi hallarda Ermənistanın dövlət orqanları tərəfindən təşviq edilməsi, təşkilat fəallarının mükafatlandırması ilə bağlı Azərbaycan tərəfindən təqdim edilmiş dəlil və sübutlar dayanır.[40]

Regionda sülhün bərqərar olunması, barışıq yollarının müzakirə edilməsi gözləntilərinin əvəzinə azərbaycanlılara qarşı nifrət əhval-ruhiyyəsinin artırılması, xüsusən də bu "fəaliyyətə" gənc nəslin cəlb edilməsi əslində münaqişənin Ermənistan tərəfindən gələcəkdə də davam etdiriləcəyi siqnallarını verir.

Ermənistanda fəaliyyət göstərən, Rusiya və Qafqaz haqqında yazılar yazan kanadalı jurnalist Neil Hauer tərəfindən "Washington Examiner" nəşrində mülki sakinlərin, xüsusilə də uşaqların hərbi təlimlərə cəlb olunması faktlarını özündə əks etdirən məqalə dərc olunmuşdur.[41]

Məqalədə Livan-erməni əsilli, ABŞ Hərbi Hava Qüvvələrində 13 il xüsusi təyinatlı zabit kimi xidmət etmiş "Aram" adlı şəxsin Azərbaycanla sərhəddən cəmi bir neçə kilometr aralıda yerləşən Armaş kəndinin böyük əksəriyyətini uşaqlar təşkil etməklə yerli sakinlərini hərbi təlimlərə cəlb etməsi ilə bağlı faktlar yer alır.

Məqalədə qeyd edilir ki, təlimlər 2020-ci ilin payızında baş vermiş İkinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak etmiş hərbi veteranlardan ibarət kiçik təşkilat olan Feniks Şücaət Məktəbi (Phoenix School of Bravery) tərəfindən keçirilir. Feniksin qurucusu və rəhbəri, ABŞ Hərbi Hava Qüvvələrinin veteranı olmuş Aram yerli sakinlərə döyüş əməliyyatlarını öyrədir ki, lazım gələrsə, onlardan gələcəkdə istifadə edə bilsin.

> This scene unfolds in Armash, an Armenian village only a few kilometers from the border with Azerbaijan. It's part of training conducted by the Phoenix School of Bravery, a small organization of military veterans who fought in last fall's Armenia-Azerbaijan war. Over the next few months, Aram, Phoenix's founder and head, will drill the villagers on defensive tactics and combat operations, such that if need be, they can employ them themselves.

**Şəkil 16.**

Məqalədə qrup üzvlərindən ən gəncinin 12 yaşlı Amalya olduğu bildirilir.

---

40 "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi (Azərbaycan Ermənistana qarşı), Keçid Tədbirləri, 2021-ci il 7 dekabr tarixli Qərar, Beynəlxalq Ədalət Məhkəməsi hesabatları 2021
https://www.icj-cij.org/public/files/case-related/181/181-20211207-ORD-01-00-EN.pdf

41 Hauer N., "Inside the world of private war" (30.09.2021), "Washington Examiner" xəbər saytı
https://www.washingtonexaminer.com/politics/inside-the-world-of-private-war

The generational impact of the decadeslong conflict is clear. The youngest member of the group arrayed there is 12-year-old Amalya, a happy but quiet young girl who holds herself proudly. Her father, in his late 50s, fought in the first war. Her brother fought in this one. He was one of the five who never came home.

**Şəkil 17.**

Məqalə müəllifinə istinadən qeyd edilir ki, Ermənistan ordusunun bir qrup veteranı öz təşəbbüsləri ilə müxtəlif yarımhərbi təşkilatlar yaratmağa başlamışlar. Ən azı 6 yarımhərbi təşkilatın yaradıldığı, onların bir çoxunun "Həyatda qalma sənəti" (VoMA) və ya "Milli dəyər kimi dövlətçilik" (POGA) kimi çalarlı adlar daşıdığı məqalədə qeyd edilmişdir. Məlum olur ki, bunlardan birincisi və hesabatda adıçəkilən erməni dilində "VoMA" qısaltması ilə tanınan qrup əslində müharibədən əvvəl döyüşlər zamanı müxtəlif könüllülər üçün təlimlər təşkil edib və cəbhə bölgələrinə bölmələr göndərib.

Now, Armenia has joined the trend. Disillusioned with the sorry state of training and preparation they saw in the Armenian army, dominated by Soviet-era tactics, a swath of veterans have started their own initiatives. At least six different paramilitary organizations have sprung up, many with evocative names such as "The Art of Staying Alive" or "Statehood as a National Value." The first of these, known by its Armenian-language acronym VOMA, actually predates the war; during the fighting, it organized trainings for various volunteers and dispatched units to the front lines.

**Şəkil 18.**

Məqalədə təlimi keçirən xüsusi təyinatlıların məqsədi aşkar şəkildə göstərilmişdir: İl ərzində iki-üç min yerli sakinə təlim keçmək.

"Artıq beş ilə yaxın planım var" deyən Aram Naxçıvana baxaraq əlavə edir: *"Əvvəlcə burada kəndləri öyrədəcəyik, sonra cənuba doğru hərəkət edəcəyik. Bir-birinə bitişik olan hər bir kənd bir zəncir yaradır və biz bunun qırılmaz bir zəncir olduğuna əmin olmağa çalışırıq."*

Ermənistan hökuməti dəfələrlə belə qrupların maliyyələşməsi ilə bağlı fəaliyyətinin olmadığını qeyd etsə də, məqalədə vurğulanır ki, hökumət müqavilələri artıq müzakirə olunub.

"I have a plan for about five years now," says Aram, looking out toward Nakhchivan. "We'll train the villages here first, and then move down to the south. Each village next to each other forms a chain, and we make sure that it's an unbreakable chain."

Their goal is to train 2,000 to 3,000 locals a year, as well as part of the Armenian army's special forces ("about 150" individuals, according to Aram). Government contracts have already been negotiated. This is where Phoenix's plan diverges from those of other private military contractors in the post-Cold War era. Unlike Blackwater or Russia's Wagner, the group is not merely guns-for-hire in a coming conflict. Rather, it's aiming to act as a force multiplier by increasing the capabilities of Armenia's population itself — a goal born out of a sense of patriotic duty, not profit motives.

**Şəkil 19.**

Armaş kənd sakinlərinin, xüsusilə də uşaqların hərbi təlimlərə cəlb edilməsi ilə bağlı fotolar və videolardan görüntülər aşağıda verilmişdir: [42]



**Şəkil 20.**



**Şəkil 21.**

[42] https://www.facebook.com/permalink.php?story_fbid=pfbid037hmn3UxmSAmaP2WYQ7hRSq8nPKc4YasLj9BuSrqgEs1Zzx9Zc3JDzuBww25dcsGAl&id=330965674105384 , https://www.facebook.com/330965674105384/videos/268181721610304/



**Şəkil 22.**



**Şəkil 23.**

Digər məqamlardan biri də odur ki, Ermənistan hökuməti dəfələrlə muzdlulardan istifadə etməsini inkar etsə də, məqalədə qeyd edilir ki, yerlilərlə yanaşı, Livan, Fransa, Rusiya, Suriyadan gəlmiş şəxslər də İkinci Qarabağ müharibəsi zamanı döyüşlərdə aktiv şəkildə iştirak ediblər.



It was during these battles that Aram met most of those who would become his fellow instructors with the Phoenix School of Bravery. The dozen or so trainers are split evenly between locals and foreigners: another Lebanese, one French, one Russian, and one Syrian, among others.

**Şəkil 24.**

Bütün bunların nəticəsidir ki, Ermənistanda böyüyən azyaşlılar uşaq inkişafında mühüm mərhələ olan oyunlar yerinə hərbi elementlərin olduğu, həqiqi döyüş silahlarının istifadə edildiyi əyləncələrə maraq göstərməyə başlayırlar. Bu, sosial şəbəkələrdə yayımlanmış videolarda da aşkar şəkildə öz təsdiqini tapır.[43]

[43] "Trend" İnformasiya Agentliyi, "Erməni uşaqları kiçik yaşlardan işğalçılıq ruhunda tərbiyə olunur - Ombudsman Aparatı (VİDEO)" (30.05.2021), https://az.trend.az/azerbaijan/politics/3431699.html

Ombudsmanın beynəlxalq təşkilatlara ünvanladığı Azərbaycanlılara qarşı nifrət nitqi və nifrət cinayətləri ilə bağlı hesabatında (II hissə) da bu mövzuya toxunulmuşdur.[44]

Ermənistanda uşaqları hərbi təlimlərə cəlb etmək istiqamətində fəaliyyət göstərən daha bir qruplaşma isə “ATAN”[45] adlanır. 2020-ci ildə əsası qoyulmuş bu təşkilat öz sıralarına qəbul üçün elanlar paylaşır,[46] azyaşlılara müntəzəm hərbi təlimlər keçir, döyüş silahlarından istifadəni öyrədir. Yayımlanan foto və videolardan bəzi uşaqların çox kiçik yaşlarda olduğunu görmək mümkündür. [47]




Şəkil 25.



Şəkil 26.

Təşkilatın “Facebook” səhifəsindəki videolardan birinin qeyd hissəsində isə hərbi təlimlərə cəlb edilən oğlan və qızların 15-17 yaşda olduqları açıq qeyd edilmişdir.[48]




Şəkil 27.

---

[44]Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair hesabat (2-ci hissə): https://www.ombudsman.az/upload/editor/files/Az%C9%99rbaycanl%C4%B1lara%20qar%C5%9F%C4%B1%20nifr%C9%99t%20cinay%C9%99tl%C9%99ri%20v%C9%99%20nifr%C9%99t%20nitqin%C9%99%20dair%20HESABAT%20(2-ci%20hiss%C9%99).pdf (Səhifə 33-38)

45 https://www.facebook.com/people/%D4%B1%D5%8F%D4%B1%D5%86/100064631096038/

[46]https://www.facebook.com/102489958563808/posts/pfbid0ik1gDJXJapM3WRAkgce6nAdD3iobwcKe87jHZRiUnsQLFsBg63D3KzQxFDtTqEZEl/?app=fbl

[47]https://www.facebook.com/102489958563808/posts/pfbid0e7aJ9cfUL9fTiDBX7UrMD4mc5XCuZoFYvNH8WfScJF38fEyhzyUsq1HvHkRqm76Kl/?app=fbl

48 https://www.facebook.com/emma.begiyan/videos/858180851953300/

“Civilnet” kanalında bu təlimlərə həsr olunmuş videolardan birinin təsvir hissəsində uşaqları öz sıralarına cəlb edən “ATAN” qeyri-hökumət təşkilatının Ermənistanın Müdafiə Nazirliyi ilə xüsusi təyinatlıların hazırlanması istiqamətində əməkdaşlıq etdiyi yazılmışdır.[49] Həmçinin təşkilatın “Facebook” qrupunda paylaşılmış videolardan birində uşaqlar üçün atıcı silahlarla bağlı təlimi mayor rütbəli hərbçinin keçdiyi qeyd olunmuşdur.[50]




**Şəkil 28-29.**

“Pastinfo TV” kanalında “ATAN” qruplaşmasının fəaliyyəti barədə yayımlanmış videoda da təhlükəli manevrlərin yerinə yetirilməsinə dair təlimlərə cəlb edilənlər arasında uşaqların olduğu görünür.[51]




**Şəkil 30-31.**

49 https://www.youtube.com/watch?v=bm1-WTX65lY
50 https://www.youtube.com/watch?app=desktop&v=oDAbqOy8Hpk&feature=youtu.be
51 https://www.youtube.com/watch?app=desktop&v=sllLcMvfXlg&feature=share

Təəccüblü deyil ki, bu qruplaşma da erməni uşaqlarda etnik nifrət hissinin formalaşmasına dəstək verir, Qaregin Njdenin fikirlərini əsas kimi istifadə edir: [52,53]




Şəkil 32.




Şəkil 33.

"ATAN" qruplaşmasının sosial şəbəkə səhifəsinə nəzər saldıqda Ermənistanda türk-azərbaycanlı dövlət xadimlərinə və diplomatlara qarşı qətllər törədilməsi üçün təşkil edilmiş "Nemesis" terror əməliyyatı ilə eyniadlı qrup yaradıldığı və uşaqların bu qrupa cəlb edildiyi məlum olur (Şəkil 34). Ermənistan hakimiyyəti bu kimi cinayətləri etiraf edərək qınamaq əvəzinə terrorçuların adını əbədiləşdirərək gənc nəsli də bu ruhda yetişdirir.[54]




Şəkil 34.

---

[52] https://www.facebook.com/102489958563808/photos/a.105779544901516/298329555646513/

[53] https://m.facebook.com/story.php?story_fbid=pfbid028fxrH1T3EUTZitfshCukGyH2As6Pt2WLWL1QhjaGr3eLWx9BzhVonQc9qKho6HWxl&id=100064631096038

[54] https://m.facebook.com/story.php?story_fbid=pfbid034TKnvp4zz1yxdvWxirgfmjULVzY4HheoGRqEywurBPgmzbwg5asfBNcLamq5vJzql&id=102489958563808

Ermənistanın “Oragir.news” saytında yayımlanan “Müharibə üçün hazırlaş” mənasında işlənən “Para bellum” adlı silsilə videolarda[55,56] da erməni azyaşlıların təlimçilər tərəfindən hərbi hazırlıq üzrə müxtəlif manevrlərlə tanış edildiyi və onların birbaşa bu fəaliyyətə cəlb olunduğu açıq şəkildə görünür. Hətta hazırda Azərbaycanın azad edilmiş ərazilərində insanların həyat və sağlamlığı üçün ciddi təhdid olan minaların basdırılması prosesi də uşaqlara ətraflı şəkildə təlim olunur (Şəkil 35-41).[57]




**Şəkil 35.**







**Şəkil 36-37.**

---

55 https://www.youtube.com/watch?v=AuMgqGN6r9I&t=110s
56 https://www.youtube.com/watch?v=MUoiaofwWl4&t=143s
57 https://www.youtube.com/watch?v=iZP2cFQD3Kg&t=323s




**Şəkil 38.**




**Şəkil 39-41.**

“Milli legion hərbi-vətənpərvərlik klubu”[58] adlı cəmiyyət də Ermənistanda uşaqlara silahla davranış qaydalarını öyrədən təlimlər təşkil edir və “Facebook” səhifəsində bu barədə davamlı paylaşımlar edir.[59,60]




**Şəkil 42.**

İnternet resurslarında aparılan araşdırmalara əsasən, xüsusilə regionlardan olan uşaqlara hərbi təlimlərin keçirilməsi və Azərbaycan-türk düşmənçiliyinin təbliğ edilməsi onların maddi təminat və sosial statusla bağlı vədlərlə bu cür qruplaşmalar tərəfindən cəlb olunduğunu deməyə əsas verir.

Təəssüf ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində həmin sülhməramlı kontingent tərəfindən mandatlarına zidd olaraq erməni uşaqların hərbi təlimlərə cəlb olunmasına dair faktlar da mövcuddur.[61] Sülh quruculuğu prosesinin başlandığı və Azərbaycan tərəfindən erməni əsilli vətəndaşların inteqrasiyası üçün davamlı addımların atıldığı bir vaxtda erməni uşaqların düşmənçilik hissi ilə böyüdülərək yeni müharibəyə hazırlaşdırılması regionda yenidən münaqişə ocağının yaranması kimi faciəvi sonluğa gətirib çıxara bilər.

58 https://www.facebook.com/azgayinlegeon?mibextid=LQQJ4d
59 https://www.facebook.com/photo/?fbid=273726315014134&set=pcb.273730768347022
60 https://www.facebook.com/100071303033834/posts/pfbid02QkkDxLnZNuCTQGQFcKpvKXRpMRwNoVgFLAKTRrQ4Ls3SqT5KTHcdi56ZLUCAroSvl/?mibextid=cr9u03
61 https://www.youtube.com/watch?v=QISpvQiYb40

## 2. Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət nitqinin təbliğində uşaqlardan istifadə edilməsi

Əfsuslar olsun ki, münaqişənin başa çatmasına baxmayaraq müxtəlif internet resurslarında, sosial şəbəkələrdə azərbaycanlılara qarşı etnik və dini zəmində nifrəti təbliğ edən foto və video paylaşımlar, açıqlamalar, çağırışlar mütəmadi olaraq yayımlanır və təbliğ edilir. Qeyd etmək istərdik ki, müxtəlif vaxtlarda Ombudsman tərəfindən ayrı-ayrı erməni əsilli şəxslərin və siyasətçilərin azərbaycanlılara qarşı nifrət nitqindən istifadə etməsi geniş şəkildə araşdırılmış və konkret faktlara əsaslanan hesabatlar beynəlxalq ictimaiyyətə çatdırılmışdır. [62]

Bəllidir ki, nifrət nitqi insan hüquqları üçün ciddi təhdiddir və bu anlayış bir sıra qlobal təşkilatlar tərəfindən pislənilir. Birləşmiş Millətlər Təşkilatı nifrət nitqinin miqyasının və təsirlərinin yeni kommunikasiya texnologiyaları ilə daha da gücləndirildiyindən narahatlığını ifadə etmiş[63], BMT Baş katibi Antonio Quterreş isə nifrətin hər kəs üçün təhlükə olduğunu və buna görə də onunla mübarizənin hər kəsin işi olmalı olduğunu bəyan etmişdir.[64] 2021-ci il iyul ayında BMT Baş Assambleyası “Nifrət nitqi ilə mübarizədə dinlərarası və mədəniyyətlərarası dialoqun və tolerantlığın təşviqi” haqqında qətnamə qəbul etmiş, 18 iyun tarixi ilk dəfə 2022-ci ildə qeyd edilmiş Nifrət Nitqinə qarşı Beynəlxalq Mübarizə Günü kimi elan edilmişdir. [65]

Nifrət nitqi şəxslərə, cəmiyyətlərə zərər vurur, nəzarət olunmadıqda insan hüquq və azadlıqlarının kobud və kütləvi şəkildə pozulması ilə nəticələnir. Təbii olaraq, nifrət müəyyən bir fəaliyyətin nəticəsidir, tarixi təcrübələr göstərir ki, birgə fəaliyyət və səylər, qarşılıqlı dialoq, anlaşma mühitində tədricən müsbət irəliləyişlərə nail olmaq mümkündür.

Münasibətlərdə müsbət inkişaf naminə sadalanan bu kimi dəyərlərin cəmiyyətə ötürülməsi əvəzinə biz bu gün erməni cəmiyyətində ədavət və düşmənçilik oyadan təşviqat və təbliğatın miqyasının uşaqlar arasında getdikcə daha da artırılmasının şahidi oluruq.[66]

2018-ci ildə Ermənistana səfər edən “National geographic” kanalının nümayəndələri də müşahidələrinə əsasən, azyaşlı ermənilərin döyüş hazırlığı keçdiyini, ciddi mübarizə ruhunda olduqlarını qeyd etmiş, hətta bununla bağlı narahatlıqlarını ifadə etmişlər. “Bu yeniyetmələr yaşlarından böyük bir müharibə üçün döyüşürlər” başlıqlı yazıda 13 yaşlı

---

[62] Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair hesabat, I və II hissə (2021), https://www.ombudsman.az/upload/editor/files/Nifret_nitqi_Hesabat_Ombudsman_AZE-PDF.pdf; https://www.ombudsman.az/upload/editor/files/Az%C9%99rbaycanl%C4%B1lara%20qar%C5%9F%C4%B1%20nifr%C9%99t%20cinay%C9%99tl%C9%99ri%20v%C9%99%20nifr%C9%99t%20nitqin%C9%99%20dair%20HESABAT%20(2-ci%20hiss%C9%99).pdf

[63] BMT-nin rəsmi internet saytı, “Nifrət nitqi” səhifəsi, https://www.un.org/en/hate-speech

[64] BMT-nin rəsmi internet saytı, “18 İyun - Beynəlxalq Nifrət Nitqi ilə Mübarizə Günü” səhifəsi, https://www.un.org/en/observances/countering-hate-speech

[65] BMT Baş Assambleyasının 75/309 nömrəli, “Nifrət nitqi ilə mübarizədə dinlərarası və mədəniyyətlərarası dialoqun və tolerantlığın təşviqi” adlı qətnaməsi (21.07.2021), https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N21/200/61/PDF/N2120061.pdf?OpenElement

[66] https://www.facebook.com/watch/?v=732708378731114&extid=NS-UNK-UNK-UNK-AN_GK0T-GK1C&mibextid=YCRy0i&ref=sharing

uşaqların belə döyüşə hazırlıq keçdiyi, riyaziyyatdan ev tapşırığı hazırladıqları kimi buna da gündəlik həyatın bir hissəsi kimi yanaşdıqları bildirilir: [67]


Photographer Emanuele Amighetti visited the region last year to capture the aftermath of the four-day conflict and the psychological effects of decades at war. Permanent readiness for battle means compulsory military service, and soldiers as young as 13 trained to fight. After school and sometimes before, young people conduct drills on marching and combat, as daily a part of their lives as doing math homework. "Their dedication and profoundness was something I had never seen before," says Amighetti. "I felt obliged to humanize these young boys and girls."

**Şəkil 43.**

Ermənistan tərəfi uşaqlara çox kiçik yaşlarından silahla rəftar vərdişlərinin öyrədilməsini adi hala çevirmişdir. Bu halın postmüharibə dövründə də davam etdirilməsinin növbəti sübutu Yeni il bayramı ərəfəsində Ermənistanda "Şaxta Baba" tərəfindən uşağa silahla davranış nümunəsinin göstərilməsi ilə bağlı kadrlardır. Bu videodan görünür ki, poliqonda olan kiçik yaşda bir uşağa bütün dünyada xeyirxahlıq nümunəsi kimi qəbul edilən "Şaxta Baba" obrazındakı şəxs tərəfindən praktiki olaraq hədəfə necə atəş açılması göstərilir. [68]



**Şəkil 44.**

[67] Stoun D., "These Teens Are Fighting a War Older Than They Are" (11.01.2018), Amerikanın "National Geographic" Jurnalı, https://www.nationalgeographic.com/photography/article/nagorno-karabakh-armenia-azerbaijan-border-photographs
[68] "Oxu.az" xəbər saytı, "Ermənistanda Şaxta babadan uşaqlara Yeni il hədiyyəsi: Praktiki atəş təlimi – VİDEO" (01.01.2023), https://oxu.az/world/680013

Ermənistan cəmiyyətində uşaqların Azərbaycan və Türkiyə dövlət rəmzlərini aşağılaması və bununla da nifrət ruhunda böyüdülməsini əks etdirən fotolar:[69]



Şəkil 45.




Şəkil 46.

Təhsil müəssisələrində uşaqların Azərbaycana və azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə edilməsi məqsədilə kiçik səhnəciklər təşkil edilir. Bunu sübut edən videodan ekran görüntüləri: [70]




**Şəkil 47-48.**

[69] https://twitter.com/Azeriphobia/status/1452624039265161222
[70] https://twitter.com/taleh346/status/1452668019705065480?s=21&t=XU6yAB5_WIkduuprcB_acA

“Türksüz Ermənistan” çağırışlarına qoşulan azyaşlının videosu da geniş təbliğ olunan etnik nifrətin təzahürlərindən biridir. [71]




**Şəkil 49.**

Digər bir paylaşımda isə bütün türklərin öldürüləcəyi, ASALA-nın terror təşkilatı olmadığı, türk diplomatlarının ölümə layiq olduğu qeyd edilir. Bu paylaşımda yeniyetmədən istifadə edilir və vurğulanır ki, biz bütün türkləri öldürəcəyik. [72]




**Şəkil 50.**

Azərbaycanlılara qarşı nifrət hissini təbliğ edən “Tsexaqron” ideologiyasının banisi Qaregin Njdenin sitatları Erməni İnqilab Federasiyası Bürosunun Gənclər İdarəsi tərəfindən keçirilən tədbirlərdə əsas təsir vasitələrindən biridir.[73] Təəssüflər olsun ki,

[71] https://twitter.com/i/status/1527234770115170305
[72] https://twitter.com/CreeWarrior2010/status/1574719185997164545
[73] https://www.facebook.com/youthoffice.arf/

Ermənistanda və onun hüdudlarından kənarda yaşayan ermənilər arasında nasizm ən yüksək formada təbliğ olunur və bu siyasətdə gələcək nəslin nümayəndələri kimi uşaqlardan da xüsusilə istifadə edilir.[74] Aşağıdakı fotolarda bunu əyani sübut edən faktlar aydın şəkildə görünür:




**Şəkil 51.**




**Şəkil 52.**

Njde ilə bağlı geniş təbliğatın aparılması uşaqlarda bu millətçi nasizm tərəfdarına dərin rəğbət oyadır. Ümumlilikdə erməni cəmiyyətində faşizm tərəfdarı olmuş qatı millətçilərin, terror təşkilatlarının üzvü olmuş şəxslərin uşaqlara geniş təbliğatı onların bu cür şəxsləri özləri üçün qəhrəman kimi seçməsinə gətirib çıxarır. Bu isə xalqlar arasında sülh prosesi üçün olduqca zərərli bir addımdır. Belə ki, aşağıda göstərilən məlumata əsasən, “Hay Aspet” təşkilatının 13-14 yaşlı üzvləri Qaregin Njde, Monte Melkonyanı özlərinin qəhrəmanı olaraq qeyd etmişdirlər: [75]

[74]https://www.facebook.com/youthoffice.arf/posts/pfbid02DrTY6yDsKQKHzsc4QpPdRaHec2AEnr7xYjCqthh9hQKyuBs7xQ5hwcyyTYzCYhaSl

[75] “A1+” Onlayn TV, “I want to be like Monte and Vazgen - student of "Hay Aspet" (video)” (28.01.2019), https://a1plus.am/en/article/200863

"I am very happy that we have such guys ready to fight, despite all the difficulties facing our army. I want our army to become stronger." Garegin Nzhdeh is the best Armenian military figure for 14-year-old Janna.

The students of the "Hay Aspet" (Armenian Knight) Educational Charitable Foundation visited the Yerablur Military Pantheon. For 13-year-old Edmond Asatryan, Monte is one of the best military figures.

**Şəkil 53-54.**

"Hay Aspet" təşkilatının üzvləri olan uşaqların bu cür yanaşması təəccüb doğurmur, çünki Qaregin Njdenin millətçilik təbliğatı bu fondun internet səhifəsində fəaliyyətinin əsas məqsədləri sırasında qeyd olunmuşdur: [76]

**The "Hay Aspet" educational charitable foundation** was established in 2006 (Founder-Director: Karin Tonoyan).

The goal of the foundation is to create patriotic organizations for children and youth in the Republic of Armenia and Artsakh, to educate the growing generation with the help of universal and national ideas, to impact on the consolidation and the development of patriotic knowledge among Armenian youth living in different parts of the world through pan-Armenian events and TV programs.

In 2006 groups of children from the schools of the Republic of Armenia were formed as **platoon of Nzhdeh** (little vagrants), who, guided by the national ideology (particularly of G. Nzhdeh), would take part in natural, military-patriotic, camping and other events.



**Şəkil 55.**

Ermənistanda türk-azərbaycanlı etnik mənsubiyyətinə qarşı nifrəti təhrik edən amillərin geniş vüsət almasının nəticəsidir ki, 6-cı sinif şagirdi olan erməni uşağın vətəni üçün yazdığı məktubda da eyni ruh müşahidə edilir. Bu nümunədə də azyaşlı özünün Monte Melkonyan, Qaregin Njde, Andranik nəslinin davamçısı olmasından qürur duyduğunu ifadə edir və Azərbaycanın işğaldan azad olunmuş Hadrut, Kəlbəcər, Şuşa kimi ərazilərini Ermənistanın ərazisi kimi təsvir edir: [77]

---

[76] "Hay Aspet" erməni təhsil-xeyriyyə təşkilatının rəsmi internet saytı, https://hayaspet.am/en/about-foundation/

[77] Karyan T. (6-cı sinif şagirdi), "Հող իմ հայրենի" (Mənim doğma yurdum) adlı esse, "Krtaditak" təhsil layihəsinin internet səhifəsi, https://krtaditak.am/%d5%b0%d5%b8%d5%b2-%d5%ab%d5%b4-%d5%b0%d5%a1%d5%b5%d6%80%d5%a5%d5%b6%d5%ab-5/




Սա իմ հայրենիքն է, և ես չեմ կարող չսիրել այն: Ես հայ եմ և հպարտ եմ, որ ապրում եմ Հայաստանում և խոսում եմ հայերեն: Աշխարհում բոլոր անվանումների և անունների մեջ կա երեք շատ կարևոր բառեր՝ հայրիկ, մայրիկ և հայրենիք: Հայրենիքը ամեն ինչ է ինձ համար, հայրենիքը իմ օդն է, իմ ջուրն է, իմ հոգին:

Որքա՜ն դժվարությունների միջով է անցել հայ ազգը, որքա՜ն ցավ է տեսել: Ցանկացած հայի աչքերում կան փորձության պատկերներ, որոնցով անցել է նա, ու ամեն անգամ դրանք հիշելիս նրա աչքերը կրկին արցունքով են լցվում: Երևի չի եղել այնպիսի ժամանակաշրջան Հայաստանի համար, երբ նա ապրել է հանգիստ և խաղաղ:

Ամենուրեք հայ երեխաներ են ծնվում՝ հայ ազգի հպարտությունը: Հայաստանը մենք ենք՝ ես ու դու, մեզնով է մեր հայրենիքը կանգուն, մենք ենք նրա ապագան, նրան շենացնողը և պաշտպանողը, ուրեմն եկեք լինենք միասնական՝աշխարհի տարբեր անկյուններում գտնվելով հանդերձ. պետք է ուս ուսի տված պայքարենք մեր հայրենիքի համար: Հանկարծ չմոռանանք մեր կրոնը, լեզուն: Եվ միշտ հիշենք, որ Հայաստանը այլևս երբեք չի պարտվի: Մենք, լինելով Մոնթեի, Անդրանիկի և Նժդեհի ժառանգները, պետք է նրանց անունները բարձր պահենք: Նրանք իրենց կյանքը տվեցին հանուն հայրենիքի: Մենք կորցրել ենք այն ամենը, ինչը սիրել ենք, ինչը մեզ համար թանկ է եղել: Դրանց մեջ է նաև Արարատը՝հայության խորհրդանիշն ու սրբությունը, որն այնքան մոտիկ է, որ կարծես եթե ձեռքդ երկարես, կդիպչես նրան: Դարեր շարունակ նրա սպիտակ, ձյունածածկ գագաթները՝Սիսն ու Մասիսը, լուսավորել են հայի հոգին: Ամեն անգամ լեռանը նայելիս այն հիշեցնում է մեր ժողովրդի կյանքում տեղի ունեցած մեծ ողբերգության մասին:

Աշնանն էլ պատերազմ էր: Բոլոր հայերի աչքերում ցավ էր: Մենք կորցրինք մեր քաջազուն, հայրենասեր զինվորներին: Մեզնից վերցրին Հադրութը, Քարվաճառը և ամենաթանկը՝ Շուշին: Շատ մեծ ցավ էր մեզ համար:

**Şəkil 56.**

Ermənistan hökumət başçısı Nikol Paşinyanın Ermənistan parlamentində çıxışı zamanı türklər və azərbaycanlıları düşmən adlandırması Ermənistanda ali səviyyədə etnik zəmində nifrətin təbliği və uşaqların da bu düşüncədə yetişdirilməsinə səbəb olur.[78]




**Turks and Azerbaijanis are our enemy. Pashinyan sees the need to manage hostility**

14:27, 14 April 2021

YEREVAN, APRIL 14, ARMENPRESS. RA Prime Minister Nikol Pashinyan considers the debate whether Turks and Azerbaijanis are the enemy of the Armenian people incomprehensible. According to "Armenpress" , the prime minister, answering the question of the deputy speaker of the parliament, Alen Simonyan, stated that the problem lies in managing that hostility.

**Şəkil 57.**

Məlumdur ki, cəmiyyətin digər üzvləri ilə müqayisədə ictimai-siyasi xadimlər, kütlələrə müəyyən təsiri ola biləcək şəxslər tərəfindən nifrəti təşviq edən çağırışların səsləndirilməsi, çıxışların edilməsi olduqca təhlükəli nəticələrə səbəb olur. Beləliklə də, etnik nifrət bir dəyər kimi cəmiyyətə və xüsusən də uşaqlara şüuraltı şəkildə ötürülür. Xüsusən sosial media platformalarında geniş izləyici auditoriyasına malik bu şəxslərin nifrət nitqinin elementlərini daşıyan çıxışlarının kifayət qədər çox olması narahatlıq doğurur.

---

[78] "Armenpress.am" erməni xəbər agentliyi, "Turks and Azerbaijanis are our enemy. Pashinyan sees the need to manage hostility" (14.04.2021), https://armenpress.am/arm/news/1048985.html?fbclid=IwAR2XQtkZmYDqf_ylkgdbNL9iZqlN9wM3sxve_jM-1GZqbGivebqLuzZGJ6k

## 3. Müharibə vəziyyətində uşaqların müdafiəsinə dair Ermənistan tərəfindən pozulmuş beynəlxalq hüquq normaları

BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasında və digər mühüm sənədlərdə uşaqlarla bağlı təsbit olunan hüquqların həyata keçirilməsi, o cümlədən silahlı münaqişələr zamanı uşaqların hüquq və mənafelərinin qorunması, onların təhlükəsiz, bərabər, tolerant və sağlam mühitdə yaşamasının, layiqli həyat səviyyələrinin təmin edilməsi dövlətlərin qarşısında duran ən mühüm vəzifələrdəndir.

Beynəlxalq hüquqi sənədlərə əsasən "uşaq" anlayışı 18 yaşına çatmayan şəxslərə aid edilir.[79]

Beynəlxalq hüquq normalarına əsasən, uşaqlar münaqişələrdə iştirak edə bilməz və onlardan istifadə edilə bilməz. Uşaqların düşmən tərəfindən əsir kimi götürülməsi zamanı müdafiəsi məsələsi "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına 1977-ci il tarixli 1 saylı Əlavə Protokolun 77-ci maddəsində də nəzərdə tutulub. Belə ki, həmin normaya müvafiq olaraq, "...15 yaşına çatmamış uşaqlar döyüş əməliyyatlarında bilavasitə iştirak edərsə və düşmən tərəfin hakimiyyəti altına düşərsə, hərbi əsir olub-olmadıqlarından asılı olmayaraq, ...xüsusi müdafiədən faydalanmaqda davam edirlər".[80]

Cenevrə Konvensiyalarına 1 saylı Əlavə Protokolda uşaqlar da daxil olmaqla mülki şəxslərin və mülki obyektlərin hədəfə alınmasının qadağan edilməsi öz əksini tapmışdır.

IV Cenevrə Konvensiyasının "Tibbi yardım zonaları və əraziləri" adlı 14-cü maddəsinə görə münaqişə tərəfləri öz ərazilərində, zəruri hallarda isə işğal edilmiş ərazilərdə tibbi yardım zonaları və əraziləri yarada bilər. Lakin bu zonalar elə təşkil edilməlidir ki, 15 yaşınadək uşaqlar da daxil olmaqla əhalinin həssas kateqoriyasından olan insanlar müharibənin təsirindən müdafiə olunsunlar.[81]

Mülki şəxslərə, o cümlədən uşaqlara humanitar yardımdan imtina edilməsi və uşaqlara yardım edən humanitar işçilərə qarşı hücumlar IV Cenevrə Konvensiyası və Əlavə Protokollara əsasən qadağandır.

BMT-nin Baş Assambleyası tərəfindən 1974-cü ildə qəbul edilmiş Qadın və uşaqların fövqəladə vəziyyət və silahlı münaqişələr zamanı müdafiəsinə dair bəyannaməsində mülki əhaliyə, xüsusilə əhalinin ən həssas üzvləri olan qadınlara və uşaqlara qarşı saysız-hesabsız hücumların və bombardmanların qadağan olunduğu vurğulanır və bu cür hərəkətlər pislənilir.

Ermənistan münaqişə dövründə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 1999-cu ildə qəbul edilmiş Uşaqlar və silahlı münaqişələrə dair ilk qətnamədə[82] qeyd edilmiş 6 istiqamət – uşaqların hərbi əməliyyatlara cəlb olunması, uşaqların öldürülməsi, uşaqlara

---

[79] BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası, 1989, Maddə 1; Beynəlxalq Əmək Təşkilatının "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" 182 saylı Konvensiyası, 1999, Maddə 2; UNICEF-in Silahlı Qüvvələr və ya Silahlı Qruplarla Əlaqəli olan Uşaqlara dair Prinsiplər və Təlimatlar (Paris Prinsipləri), 2007, Maddə 2

[80] I Əlavə Protokol, Maddə 77 (3)

[81] IV Cenevrə Konvensiyası, Maddə 14

[82] BMT-nin Təhlükəsizlik Şurasının 1261 saylı, "Uşaqlar və silahlı münaqişə" adlı qətnaməsi, S/RES/1261 (30.08.1999), http://unscr.com/en/resolutions/1261

qarşı cinsi zorakılıq, təhsil və səhiyyə müəssisələri, habelə digər mülki obyektlərə hücumlar, girov götürülmə, humanitar yardımdan imtina üzrə hüquq pozuntularını törətmişdir.

Uşaqların silahlı münaqişələrə cəlb olunmasına dair müddəalar 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların 1977-ci il tarixli Əlavə Protokollarında, 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiya və onun 2000-ci il tarixli Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokolunda, BMT-nin Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1999-cu ildə qəbul edilmiş 182 saylı "Uşaq əməyinin ən pis formalarının ləğvi haqqında" Konvensiyasında, 2002-ci ildə qüvvəyə minmiş Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda öz əksini tapmışdır.

Beynəlxalq humanitar hüquq kontekstində uşaqların hüquqları mülki əhalinin tərkib hissəsi olaraq 1949-cu il Cenevrə Konvensiyaları və onun Protokollarında ehtiva edilib.[83]

Uşaqların hərbi qulluqçu kimi istifadəsi ilk dəfə IV Cenevrə Konvensiyası ilə beynəlxalq hüququn predmetinə çevrilmişdir. Konvensiyanın 14-cü maddəsinə əsasən, on beş yaşına çatmayanlar xüsusi mühafizə olunan şəxslər sırasına daxil edilir.

Ermənistanın da qoşulduğu 1 saylı Əlavə Protokolun 77-ci maddəsinə əsasən, uşaqlar xüsusi hörmət obyektidir və onlar istənilən formada nalayiq hücumlardan qorunmalıdırlar. Protokol münaqişə tərəflərini uşaqlar üçün "yaşlarına görə və ya hər hansı digər səbəbə görə tələb olunan qayğı və yardımı" təmin etməyə məcbur edir.[84]

Həmin Protokolun 77-ci maddəsinin 2-ci bəndinə əsasən, "Münaqişə tərəfləri on beş yaşına çatmamış uşaqların hərbi əməliyyatlarda iştirak etməməsi üçün bütün mümkün tədbirləri görməlidirlər və xüsusilə onları öz silahlı qüvvələrinə cəlb etməkdən çəkinməlidirlər".

Bununla yanaşı, Ermənistanın da qoşulduğu 2 saylı Əlavə Protokolun 4.3 (c) maddəsinə əsasən, on beş yaşına çatmamış uşaqlar silahlı qüvvələrə və ya qruplaşmalara cəlb oluna bilməzlər və hərbi əməliyyatlarda iştirak edə bilməzlər.

BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının 38-ci maddəsinə uyğun olaraq, iştirakçı dövlətlər silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq, silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görməlidirlər. Lakin Ermənistan dövləti üzvü olduğu bu sənədin normalarını kobud şəkildə pozmağa davam etməkdədir.

Belə ki, Konvensiyanın 38-ci maddəsinə əsasən "İştirakçı dövlətlər on beş yaşına çatmamış hər hansı şəxsi öz silahlı qüvvələrinə çağırış etməkdən çəkinməli" və "on beş yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda birbaşa iştirak etməməsi üçün bütün mümkün tədbirləri görməlidirlər".[85]

Ermənistanın 2005-ci ildə ratifikasiya etdiyi BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokoluna əsasən hərbi xidmətə çağırış üçün yaş həddi 15-dən 18-ə qaldırılmışdır. Belə ki, həmin beynəlxalq sənədə əsasən, iştirakçı dövlətlər öz silahlı qüvvələrinin 18 yaşına çatmayan üzvlərinin hərbi əməliyyatlarda birbaşa iştirakının qarşısının alınması məqsədilə bütün mümkün tədbirləri görməlidirlər.

---

[83] II Əlavə Protokol, Bölmə II; Əlavə Protokol I, Maddə 10

[84] I Əlavə Protokol, Maddə 77

[85] BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası (20 noyabr 1989), https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-rights-child

Eyni zamanda, Fakultativ Protokolun 4-cü maddəsinə əsasən, dövlətin silahlı qüvvələrindən fərqli olan silahlı qruplaşmalar 18 yaşına çatmamış şəxsləri heç bir halda cəlb etməməli və onları hərbi əməliyyatlarda istifadə etməməlidir. Həmin maddədə iştirakçı dövlətlərin üzərinə “belə cəlbetmə və istifadə hallarının qarşısının alınması məqsədilə bu kimi təcrübələrin qadağan edilməsi və kriminallaşdırılması üçün zəruri olan hüquqi tədbirlər də daxil olmaqla bütün mümkün addımların atılması” ilə bağlı öhdəlik qoyulur.

Ermənistan tərəfindən 2006-cı ildə ratifikasiya olunmuş BƏT-in 182 saylı “Uşaq əməyinin ən pis formalarının ləğvi haqqında” Konvensiyası uşaqların əsgər kimi istifadəsini uşaq əməyinin ən pis formalarından biri kimi müəyyən edir. Beləliklə, Konvensiyanın 3-cü maddəsi uşaqların silahlı münaqişələrdə istifadə üçün məcburi cəlb edilməsini tamamilə qadağan edir.

Ermənistan tərəfindən ratifikasiya mərhələsində olan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8(2)-ci maddəsinin b bəndinin XXVI hissəsində qeyd edilir ki, 15 yaşadək uşaqların milli hərbi qüvvələrin sıralarına çağırılması yaxud onlardan hərbi əməliyyatlarda fəal iştirak üçün istifadə edilməsi müharibə cinayəti hesab edilir. Qeyd edilməlidir ki, Ermənistan dövləti 1998-ci ildə bu sənədi imzalayıb.

BMT-nin Uşaq Fondunun “Silahlı münaqişənin uşaqlara təsiri” adlı 1996-cı il Hesabatında qeyd edildiyi kimi, silahlı münaqişələr dünyada olan bütün uşaqların fundamental hüquqları olan yaşamaq hüququnu, habelə onların ailədə böyümək, sağlamlıq hüququnu, şəxsiyyət olaraq inkişaf etmək hüququnu, müdafiə olunmaq və tərbiyə olunmaq hüquqlarını pozur.[86]

Beləliklə, beynəlxalq silahlı münaqişələr zamanı uşaqların xüsusi müdafiəsi açıq şəkildə müəyyən edilmişdir.

BMT-nin Təhlükəsizlik Şurasının uşaqlar və silahlı münaqişələrlə bağlı müvafiq qətnamələrində uşaqların silahlı münaqişədə istifadə hallarından müdafiə edilməsi ilə bağlı öhdəlikləri dövlətlərə xatırladılır.[87]

Avropa Şurası Parlament Assambleyasının “Silahlı münaqişələrdən zərər çəkən uşaqların müdafiəsi” haqqında 2204 saylı (2018) qətnaməsində uşaqların zorakılıqdan, o cümlədən silahlı münaqişələrdən müdafiəsi, bu kimi zorakılığa məruz qaldıqdan sonra onlarda inamın bərpa olunması və uşaq yönümlü hüquqi və inzibati prosedurların yaradılması ilə bağlı tədbirlərin görülməsinin zəruriliyi vurğulanır.

Silahlı Qüvvələr və ya silahlı qruplaşmalarla əlaqəli olan uşaqlara dair Prinsiplər və Qaydaların (Paris Prinsipləri) 2.1-ci paraqrafında “silahlı qüvvələr və ya silahlı qruplaşmalarla əlaqəli olan uşaq” anlayışı nizami və ya nizamsız silahlı dəstələrdə qulluqçu, elçi, agent kimi seksual xidmətlər zamanı və s. vəzifələrdə istifadə olunan 18 yaşına çatmamış şəxslərə aid edilir. Bu anlayış ağır silahlı qruplaşmanın ön sıralarında xidmət edən silahlı və ya silahsız qızlara da aid edilə bilər.

Ermənistanın imzaladığı 2007-ci il tarixli Paris Öhdəlikləri (Silahlı qüvvələr və ya silahlı qruplaşmalar tərəfindən qanunsuz şəkildə cəlb və ya istifadə olunan uşaqların hüquqlarının müdafiəsinə dair Paris Öhdəlikləri) və Paris Prinsiplərində (Silahlı qüvvələr və ya silahlı qruplaşmalarla əlaqəli olan uşaqlara dair Prinsiplər və Qaydalar) ölkələr tərəfindən uşaqların silahlı qüvvələrə və qruplaşmalara cəlb edilməsi prosedurunun

[86] UNICEF-in 1996-cı il üzrə “Silahlı münaqişənin uşaqlara təsiri” adlı hesabatı, paraqraf 30, http://www.unicef.org/graca/a51-306_en.pdf

[87] BMT Təhlükəsizlik Şurasının 2143 saylı, “Uşaqlar və silahlı münaqişə” adlı qətnaməsi, S/RES/2143 (07.03.2014), http://unscr.com/en/resolutions/2143

mövcud beynəlxalq hüquqi normalara, o cümlədən BMT-nin “Uşaq hüquqların haqqında” Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokoluna uyğunlaşdırılması və onların yurisdiksiyasında olan silahlı qruplaşmalar tərəfindən uşaqların hərbi əməliyyatlarda istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirlərin görülməsi ehtiva edilmişdir.[88]

Eyni zamanda, “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiyanın[89] 4-cü maddəsinə əsasən, Ermənistan hər hansı irqin və ya qrupun üstünlüyünü təşviq edən ideyalar, irqi nifrət və ayrı-seçkiliyi təbliğ edən təşkilatların fəaliyyəti ilə bağlı zəruri tədbirlərin görülməsi öhdəliyini daşıyır.

Təəssüflər olsun ki, Ermənistan silahlı münaqişə zamanı, xüsusilə İkinci Qarabağ müharibəsində, habelə postmüharibə dövründə uşaqlardan istifadə edərək, onların beynəlxalq sənədlərdə təsbit olunmuş hüquqlarını pozmuşdur.

---

[88] UNICEF, “Silahlı qüvvələr və ya silahlı qruplaşmalar tərəfindən qanunsuz şəkildə cəlb və ya istifadə olunan uşaqların hüquqlarının müdafiəsinə dair Paris Öhdəlikləri”, https://resourcecentre.savethechildren.net/pdf/Paris-Commitments-to-protect-children-from-unlawful-recruitment-or-use-by-armed-forces-or-armed-groups.pdf/; “Silahlı qüvvələr və ya silahlı qruplaşmalarla əlaqəli olan uşaqlara dair Prinsiplər və Qaydalar” (2007) https://www.unicef.org/mali/media/1561/file/ParisPrinciples.pdf

[89] “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya (21 dekabr 1965), https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-convention-elimination-all-forms-racial

## Nəticə

Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət siyasətində uşaqlardan istifadə edilməsinə dair bu hesabatda uşaqların hüquqlarının pozulmasına dair bir sıra faktlar göstərilmişdir.

Hesabatda əks etdirilmiş faktlar Ermənistanın beynəlxalq hüququn tələblərinə zidd əməllər törətdiyini, iştirakçısı olduğu və uşaqların hüquq və maraqlarının təmininin təsbit olunduğu bir sıra konvensiyaların tələblərini kobud şəkildə pozduğunu, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini sübut edir.

Aparılan araşdırma nəticəsində məlum olmuşdur ki, Ermənistan postmüharibə dövründə uşaqları silahlı qruplaşmalara cəlb etmiş, həmçinin azərbaycanlılara qarşı nifrət nitqinin təbliğində uşaqlardan istifadə edilməsi istiqamətində fəaliyyət göstərmişdir.

Ermənistan “VoMA”, “POGA” və bu kimi müxtəlif qanunsuz silahlı qruplaşmaların qadağan edilməsi, onlar tərəfindən uşaqların hərbi məqsədlərlə cəlb olunması və istismarının, habelə azərbaycanlılara qarşı nifrət nitqinin təbliğində uşaqlardan istifadə edilməsinin qarşısının alınması istiqamətində beynəlxalq hüquqa əsasən üzərinə götürdüyü öhdəliklərlə bağlı zəruri tədbirləri görməmişdir. Uşaqlara azərbaycanlılara qarşı nifrət və düşmənçiliyin aşılanması ilə bağlı Ermənistan tərəfindən atılan bu addımlar regionda sülhün bərqərar olmasına, ölkələr və xalqlar arasında qarşılıqlı əlaqələrin qurulmasına, münasibətlərin bərpa olunmasına ciddi maneələr yaradır.

Silahlı münaqişə şəraitində, eləcə də postmüharibə dövründə sülhyaratma prosesi mərhələsində uşaq hüquqlarının bu cür kobudcasına pozulması halları beynəlxalq humanitar hüququn norma və prinsiplərinə birbaşa zidd olduğuna görə bu hallara yalnız münaqişə tərəflərinin problemi kimi deyil, qlobal xarakterli məsələ kimi baxılmalıdır.

Qeyd edilənləri nəzərə alaraq, aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın uşaq hüquqlarının müdafiəsinə dair üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi faktları ilə bağlı müvafiq addımların atılması zəruridir.

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**Rəsmi internet səhifəsi: www.ombudsman.az**

**“Facebook”: ombudsman.az**

**“Twitter”: az_ombudsman**

**“Instagram”: ombudsman_ azerbaijan**

**“Youtube”: Ombudsman of Azerbaijan**

**Çağrı Mərkəzi: 916**

**Tel/Fax: (+99412) 493 74 22, (+99412) 498 23 65**

**Elektron poçt: ombudsman@ombudsman.az**
**apparat@ombudsman.az**

**AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, II Ala qapı**